

*Qədir Tərtərli*

# NAZİRİN OĞLU

(Hekayə)

Salahlı kəndinə xəbər yayılmışdı ki, keçəl Məmmədin qızını adlı-sanlı bir nazirin oğlu istəyir. Tezliynən nişan taxacaqlar qıza. Məktəbdə dərslərin sona yetişməsini gözləyirlər. Onu da deyirdilər ki, toyları da kənddə yox, Bakıda - adla deyilən şadlıq evlərinin birində olacaq.

Uşağın da, böyüyün də dilində əzbər olmuşdu bu söz. Ona görə yox ki, qıza nişan taxılması, toy olunması təzə xəbər deyildi. Bu, ona görəydi ki, Salahlının bünövrəsi qoyulandan ta bu günə kimi heç bir nazirin oğlu bu kəndin qızlarına nəinki aşiq olmuş, hələ heç yuxularına da girməmişdi.

Nazirin birdən-birə ucqar bir kənddən, kənddə də sayılıb-seçilməyən, adam yerinə qoyulmayan bir keçəlnən qohumlaşması zarafat deyildi ha! Bu, tarixdə görünməmiş möcüzələrdən biri idi.

Bu xəbər çıxan gündən keçəl Məmmədə ta özgə gözlə baxanlar, "bəxtəvər başına" deyənlər az deyildi. Çoxlarına elə gəlirdi ki, ta bundan belə keçəl Məmmədin qılığına girmək, lap yeri gəlsə, nazıynan da oynamaq lazımdı. Adına qoşulmuş ayamanı da birdəfəlik üstündən götürmək pis olmaz. Nədən ki, nazirin qohumuna "keçəl" demək ədəbsizlik sayılar.

Kəndin mərkəzində Nuh əyyamından qalmış bir çayxana vardı. Çayxanadan çox ona "Qiybətxana" da deyirdilər. Bu ad elə-belə yapışdırılmamışdı çayxanaya. Bu, ona görəydi ki, keçmişlərin, keçəcəklərin, qohumların, qonşuların, yaxınların, uzaqların, bir sözlə, istənilən adamların qeybətləri burda qırılar, söz-söhbətləri burda böyüdülərdi. Hər cür dürlü-dürlü xəbərləri, xoruz səsi eşitməmiş sözləri burdan eşidib öyrənmək olardı.

Çayxananın hər cür "kliyenlrəi" vardı. Qumarbazlar, nərd oynayanlar, domino şaqqıldadanlar əskik olmazdı burdan. Amma bu çayxananın əsl, halal-haqqannəs "kliyentləri" Əlişnən Vəliş idi. Əslinə qalsa, qondarma adlar idi o kişilərin adları. Ata-analarının onlara uşaq vaxtlarında əzizləyə-əzizləyə dedikləri "Əliş-Vəliş" sözləri böyüyəndə də hamının dilində əzbər olmuşdu. Qoy hamıya məlum olsun ki, bu kişilərin doğru-dürüst adları Əliyəddin və Vəliyəddin idi. Birdəfəlik arxivə vermişdilər bu adları.

Əlişnən Vəlişi harda axtarsan, ancaq bu çayxanada tapmaq olardı. Çayxanaya ki, ayaq basdılar, çox vaxt heç evlərinə getmək də düşməzdi yadlarına.

Əlişnən Vəliş həmişəki kimi, bu gün də qoşalaşıb üz tutmuşdular çayxanaya. Hələ içəri girməmiş Vəliş çöldən əmrini vermişdi çayçı Həsənə:

- Ə, ay Həsən, "xoruzquyruğu"nu hazırla, gəlirik.

Həsən də həmişəki kimi eyni sözü təkrarlamışdı:

- "Xoruzquyruğu" hazırdı, siz gəlməkdə olun.

"Xoruzquyruğu" adını Həsənin dəmlədiyi çaya qoymuşdular. Həsənin çayı lap eləcə qaynanmış ağ su olsa da belə, Əlişnən Vəlişin aləmində o "xoruzquyruğu" idi ki, "xoruzquyruğu" idi.

İçəri girən kimi daimi "kliyentlər" öz həmişəki yerlərini tutdular. İncəvardan çayxanada heç kəs yox idi.

Bu dəfə söhbətə Əliş başladı:

- Ə, ay Həsən, kənddə danışılanlardan sən nə bilirsən? Çünki sənin yığnağın çox olur. Danış görək, təzə nə eşitmisən?

Həsən çiyinlərini çəkdi:

- Hansı danışılanları deyirsən? Kənddə o qədər söz danışıllar ki, nə bilim hansını deyirsən?

- Ə, ay dilbilməz, keçəl Məmmədin nazirnən qohumlaşmasını deyirəm dana, ayrı nə soruşasıyam ki?

- Hə, ucunnan, qulağınnan eşitmişəm bir az. Gənə yaxşısını siz bilərsiniz.

Əliş qarşısındakı "xoruzquyruğu" çaydan bir qurtum alıb dilləndi:

- Vallah, Həsən, deyirəm Allah adamınkını gətirəndə belə gətirir dana. Kimin ağlına gələrdi ki, o boyda nazir keçəl Məmmədnən qohum ola. "Axırın gəlsin bez tuman" buna deyiblər ey. Ta bunnan sora gərək keçəlin papağının altından keçək. Əlacımız nədi, işimizin düzəlməsi xətrinə hər şeyi eləməliyik.

O yandan Vəliş də dilləndi:

- Deyirəm, elə Allah bizim də üzümüzə baxıb. Kəndimizin yolu bir gör nə gündədi? Bazara, şəhərə gedib çıxanacan maşınnarda istahat qalmır. Gərək keçələ deyək, nazirə çatdırsın bunu. Nazirin əlində bu iş su içimi kimi bir şeydi.

Əliş boğazını arıtlaya-arıtlaya:

- Su dedin, yaxşı yadıma düşdü, ay Vəliş. Elə belə götürəndə suyumuz da bir su döyül axı. Əlavə artezianımız olsa, lap yaxşı olar işimiz. Əkinimiz, biçinimiz də qaydasına düşər, dirrik-tərəvəzimiz, həyət-bacamızdakı işlərimiz də.

Deyəsən bu sözdən sonra Vəlişin dərdi təzələndi:

- A qardaş, dərd bir olar, birini çəkərsən. Dərdlərimiz təkcə elə bu dediklərimiz döyül kü. Hələ heç gör anbarımız yada düşürmü? Nuh əyyamınnan tikilən anbardı. O qədər yırtıq-deşiyi var ki... Öz kəndimizdəkilər bir yana, qonşu kəndlərin də qarğaları, saxsağanları, sərçəsığırçınları anbara tökülən taxılımızı daşıyıb qurtardılar. Buna da bir əncam çəkilməlidi, yaxox? Bayaqdan bəri bu söhbətlərə qulaq asan çayçı Həsən daha dözə bilmədi:

- İrəhmətdik Qədir Rüstəmov bir mahnı oxuyurdu ey, "Elə yar, yar deyillər, heç məni demillər". Mənimki lap ona bənziyir. Niyə heç demirsiniz ki, həftə səkkiz, mən doqquz deyib hər gün alaq otu kimi bitdiyiniz bu çayxanaya da əl gəzdirmək Allaha xoş gedər.

Söhbətin bu yerində mağazadan qənd alıb çıxan keçəl Məmməd böyürdən çıxdı.

Çayçı Həsən üzünü Əlişnən Vəlişə tutub:

- Bu lap yaxşı oldu. Girəvədi, qoy gəlsin, dərdimizdən o da halı olsun. Çatdırsın qohumuna. Bə qohum qohuma nə gündə lazımdı?

Bu sözləri deməyiynən Məmmədi səsləməsi bir oldu:

- Məmməd, ay Məmməd! Ə, yaxşı çay dəmləmişəm, gəl bir çay iç.

Məmməd çayxanaya heç üz çevirmədən:

- Yox, tələsirəm, evdə qonağım var, - deyib aradan çıxdı.

Əliş Məmmədin arxasınca baxa-baxa:

- Hara gəlir ə, - dedi. Gəlməz dünyasında. Nazirin qudası elə-belə adam döyül kü, hər yetənnən oturub çay içsin.

Bu sözə Vəlişin də gülməyi tutdu, çayçı Həsənin də...

Aradan xeyli müddət keçmişdi. Arada gəzən söz-söhbətlər çoxlarının yadından çıxmışdı. Əlişnən Vəliş də ta o söhbəti unutmuşdular.

Bir gün yenə daimi "kliyentlər" çayxanaya gələndə, çayçı Həsən onlardan soruşmuşdu:

- Köhnə söhbəti niyə unutmusunuz? Niyə heç maraqlanmırsınız ki, nazirnən keçəl Məmmədin qohumluğunun axırı necə oldu?

Əliş elə bu sözə bənd imiş kimi unutduqlarına heyfsiləndi:

- Sən bir işə bax ey, bir gör nəyi unutmuşuq. Sağ ol ay Həsən, yaxşı yadıma saldın. Bu günnərdə Səlbi qarı Bakıya gedəsidi, nəvəsinin yanına. Nəvəsi institutda işləyir axı. Gərək ona deyək, o məsələnin vəcehinə yetsin. Səlbi qarı bitdə-bitdə öyrənəcək məsələni. Elə işdərə yaxşıdı Səlbi qarı.

...Səlbi qarı Bakıdan qayıdanda deyilən məsələni olduğu kimi öyrənib,olduğu kimi də çatdırmışdı kəndə. Hamıdan əvvəl də Əliş öyrənmişdi işin içini.

Əliş öyrəndiklərini çayxanada birinci Həsənnən Vəlişə çatdırmasaydı, rahat ola bilməzdi. Odur ki, üz tutdu Vəliş gilin evlərinə tərəf. Çəpərin başından Vəlişi səslədi. Vəliş də himə bənd imiş sən demə.

Qoşalaşıb üz tutdular çayxanaya. Vəliş adəti üzrə yenə çöldən səsləndi:

- Həsən, "xoruzquyruğunun dozasını artır bu dəfə. Xoruz səsi eşitməmiş təzə xəbər gətirmişik sənə. O dəfə maraqlanırdın axı...

Əlini Əlişin çiyninə qoyub dedi dediklərini:

- Hə, di başda görək,indi söz sənindi.

Əliş də söz kisəsinin ağzını açdı, nə açdı:

- Həsən, əvvəlcə de görüm, təzə xəbərin muşduluğuna nə verəcəhsən? Dillən görüm, onu deməsən, heççə nə deyən döyüləm.

- Nə deyirəm, indi ki, muşdulux istəyirsən, "xoruzquyruğu"nun pulunu almıyacam bu dəfə.

Əliş sözünə Səlbi qarını tərifləməklə başladı:

- Demişdim axı, gözünə döndüyüm Səlbi qarı hər şeyi bitdəbitdə öyrənməmiş geri qayıtmazdı. Elə o cür qayıtmıyıf da, yerri-yataxlı öyrənif hər şeyi.

Həsən dözə bilmədi daha:

- Ə, di ürəyimizi üzmə. De görək nəyi öyrənif?

- Hə, birinci öyrəndiyi o oluf ki, burda lağ elədiyimiz traxtiris Nəzir Bakıya gedən kimi institutda işə düzəlif. Əmisi oğlu düzəldif onu işə. Əmisi oğlu institutda işdiyir axı. Deyif, hələlik burda gözətçi işdə, sorasına baxarıq. İkinci işi də o oluf ki, dədəsinin, nənəsinin qoyduğu halal adını dəyişif Nazir eliyif. Nazir Nəzirdən qat-qat hörmətdi addı axı. Bir var Nəzir deyəsən, bir də var Nazir. Fikir ver, gör hansı yaxşı səsdənir. Balam, bu Bakı belədi də. Bakını nə bilmisiniz.

Ora ayax basanın hamısını dəyişir təpədən dırnağa kimi. Adını da, yerişini, duruşunu da, pal-paltarını da, xasiyətini də. Hələ desən, danışığını da. Heş fikir verməmisiniz, burdan Bakıya gedif Bakıda oxuyan qızdarımıza. Əvvəlcə saçdarını kəsdirif oğlan saçına oxşadıllar, oğlan kimi şalvar geyillər, hələ desən yeri gələndə oğlan papağı da qoyullar başdarına.

Çayçı bu dəfə lap hövsələdən çıxdı:

- Ə, ay Əliş çox uzadırsan ey söhbəti. Keç əsas məsələyə. Toydan, nişannan danış görək, o necə oluf?

- Hə, qoy onu da deyim. Nazirin oğlu keçəl Məmmədin qızının oxuduğu məytəfdə oxuyurmuş. Sən demə, keçəlin qızını gözaltı eliyifmiş. Bir gün ona yaxınlaşıf sözünü deyir.

Qız da yaxşıca verir dərsini:

- Atını gennən sür, get axtar tayını tap, - deyir. Sən demə, qız əvvəlcədən başqasıynan alışı verişibmiş.

Qızın verdiyi cavab deyəsən Vəlişin lap ürəyindən olmuşdu:

- Ay, nə bir deyif amma! Qurvan olum o qızın dilinə!

Çayçı Həsən köksünü ötürdü:

- Siz nahaq yerə sevinirsiniz bu işə. Amma mən sevinmirəm. Məsələ əvvəlki kimi olsaydı işdərimiz düzələrdi.

Nazirnən qohumluğun baş tutmaması cəhənnəm, planlarımız alt-üst oldu.